AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASI




# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ MÜSƏLMAN ŞƏRQİNDƏ İLK DEMOKRATİK PARLAMENT RESPUBLİKASIDIR

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ KONFRANS

## P R O Q R A M

**24 may 2018-ci il**

**Bakı-2018**



***28 may Azərbaycanın müasir tarix təqvimində ən mühüm gündür. Bu tarix azadlığın, müstəqilliyin qazanıldığı, səsimizin dünyaya ilk dəfə çatdırıldığı gündür. 28 may tək Azərbaycan üçün deyil, bütünlüklə müsəlman Şərqinin tarixində ilk respublikanın qurulduğu tarixdir. Azərbaycanın müstəqilik qazanması qürur duyacaq hadisə olmaqla yanaşı, keşməkeşli yol keçib.***

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan xalqının Ümummilli Lideri**

## GİRİŞ SÖZÜ

Vəli Hüseynov - Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri əvəzi, Ali Attestasiya Komissiyası sədrinin müavini

## M Ə R U Z Ə L Ə R:

**1. Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji-siyasi əsasları**

Rafail Əhmədli - AAK Humanitar, ictimai elmlər və sənətşünaslıq şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru, professor

**2. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlətin hüquqi bazasının formalaşması**

Nazim Cəfərli - AAK Hüquq elmləri üzrə ekspert şurasının üzvü, hüquq üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının əməkdar müəllimi

## Ç I X I Ş L A R

# Ali Attestasiya Komissiyasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş konfrans keçirilib

❒ ***Mayın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında (AAK) Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş konfrans keçirilib. Bu barədə AZƏRTAC-a AAK-dan məlumat verilib.***




Tədbiri açan Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri əvəzi, AAK sədrinin müavini Vəli Hüseynov bildirib ki, 1918-ci il mayın 27-də Zaqafqaziya Seyminin müsəlman fraksiyasının üzvləri ayrıca iclaslarını keçirmiş və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəlmişlər. Tarixdən məlum olduğu kimi, Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etmişdir. Bununla da, əslində, ilk Azərbaycan parlamenti yaranmış və Azərbaycanda ilk parlamentli respublikanın bünövrəsi qoyulmuşdur. 1918-ci il mayın 27-də keçirilmiş həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçilmişdir. Həmin iclasda M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçilmişdir. Mayın 28-də isə Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirilmiş və burada qəbul edilən Bəyannamə bütün türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə məhz ilk dəfə olaraq Azərbaycanda yeni tipli demokratik respublika idarə üsulunun – parlamentli Cümhuriyyətin yaradılmasının siyasi-hüquqi əsasını qoymuşdur. Heç də təsadüfi deyil ki, müasir müstəqil Azərbaycan Respublikası yaranarkən özünü Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi-siyasi varisi elan etmişdir.

1990-cı illərin əvvəllərində yaranmış müasir müstəqil Azərbaycan Respublikasının böhranlı vəziyyətində hakimiyyətə gəlmiş ümummilli lider Heydər Əliyev dövlətimizin tarixi taleyinin həll olunmasında mühüm işlər görərək onu böhrandan çıxarmış, dövlətimizin iqtisadi, siyasi, ideoloji və hüquqi əsaslarını möhkəmlədərək onun daha güclü inkişafı üçün geniş zəmin yaratmışdır. Bununla da dövlət və dövlətçiliyimiz Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən fərqli olaraq öz müstəqilliyini qoruyub saxlamışdır.

Hazırda ölkəmizin Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının daha da uğurlu inkişafı və güclü modern dövlətə çevrilməsi istiqamətində genişmiqyaslı dövlət proqramları həyata keçirilir.

Tədbirdə məruzə ilə çıxış edən AAK-ın şöbə müdiri Rafail Əhmədli XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan mütəfəkkirlərinin Azərbaycan Xalq Cümhuriyyətinin nəzəri və ideoloji əsaslarını hazırlaması və onların yaratdıqları siyasi partiyaların keçdiyi mübarizə yolu haqqında geniş məlumat verib. AAK Hüquq elmləri üzrə ekspert şurasının üzvü, hüquq üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar Müəllimi Nazim Cəfərli məruzə ilə çıxış edərək, Azərbaycan Xalq Cümhuriyyətinin parlamentli respublika kimi fəaliyyətindən, qəbul etdiyi qanunların mütərəqqi xüsusiyyətlərindən danışıb.